# ÇİNGİZ ÖMRÜNÜN POETİK XRONİKASI

***(Əvvəli ötən saylarımızda)***

Məlahət Soltanqızının poema yaradıcılığında həm zamana aydın münasibət var, həm də həyatın müxtəlif tərəflərinin əhatəli təsviri var. Hətta əsər boyu baş qəhrəmana bağlı olan digər obrazların da yüksək səviyyədə həyat lövhələri yazıçının doğma münasibəti ilə yer alır. Bu baxımdan *"Yarımçıq ömrün xatirəsi"* poemasını mənzum roman da adlandırsaq, səhv etmərik. Çünki, əsər dövrün ayrı-ayrı adamlarının taleyindən keçən müharibənin ən qanlı səhnələri ilə obrazların taleyində göstərə bilir. Bu baxımdan Zakir və Nübar əhvalatı çox xarakterikdir.

Əsərin maraqlı obrazlarından biri kimi Zakir vətənpərvərliyi, yurda, torpağa sevgisi, dostuna sədaqəti, ən başlıcası, könül verib sevdiyi Nübarına sarsılmaz məhəbbəti ilə yadda qalır. Zakir yaralanır, onun yarasının nə qədər ağır olduğunu bütün əsgər yoldaşları, o cümlədən, Çingiz də görür. Ancaq əlahiddə olaraq nə isə eləmək mümkün deyil, hər halda tale öz hökmünü vermişdi.

Burada Zakirin danışdığı xatirələr həqiqətən qəlb göynədən mənzərələrlə sözə çevrilir. Bu məqamda sanki Çingizin ölüm səhnəsini görürük və biz həmin səhnədə acı-acı dostunun taleyini müşahidə edən Çingizin özünü də görürük.

Hər halda Çingiz Fuadoğlu da insandı və o bir ata, yaxud bir oğul duyğularını yağış kimi yağan güllələrin altında reallıqla yaşayırdı: *"Çəkilib bir kənara, dalmışdı xəyallara. Bu gün sakitlikdi, yorğundu hamı. Oturub səngərdə iki-bir, üç-bir, Əsgərlər gözləyir əmrə müntəzir. Çingiz çıxarmışdı çəkmələrini, sol ayağı nə vaxtdır incidir onu. Əliylə ovuşdurdu, qızarmış barmaqların, Ağrayırdı dizləri həvəssiz-həvəssiz geyindi çəkmələrin. Söykənərək divara, dalmışdı xəyallara. Xəyal onu buralardan qopardı, xəyal onu haralara apardı... Yaman darıxmışdı doğmaları üçün, Xəyalın qanadında evlərinə uçmuşdu. Evlənmişdi, yolunu gözləyəni var idi. O, oğul atasıdır, Aslan kimi bir körpə böyüyür ocağında. Evini arzuladı... - Kaş evimdə olaydım, O körpə övladımı qucağıma alaydım. Mışıl-mışıl yatağında uyuyan, Övladımın süd qoxusun alaydım. Mənə övlad bəxş edən, Mələyimin kaş yanında olaydım. Yollar uzaq, zaman dar".* Çingiz Fuadoğlunun bu düşüncələri göstərir ki, o necə atalıq qayğıları ilə yaşayır. O, həmin anlarda sevgilisini də düşünür, necə onun yanında olmağı arzulayır. Amma bu istəklər, bu arzular onun özün, yaxud ailəsinə aiddir. Çingizi isə müharibəyə vətən istəyi, vətən çağırışı gətirmişdi. Bu çağırış onun üçün bütün qalan tələblərin hamısından öndə idi.

Birinci Qarabağ savaşında Xocavəndin Daşbaşı postunda əsgərlər dağın döşünə iki sözdən ibarət bir istək yazmışdılar: *"Öncə vətəndir"*. Sonralar hadisələr gedişi zamanı həmin postdakı əsgərlərin hamısı həlak oldu. Özü də bir gecədə. Düşünürəm ki, bəlkə elə Çingiz Mustafayevdən də soruşan olsaydı ki, niyə həkimliyinlə məşğul olmursan, onda yəqin ki, o da elə həmin sözü işlədərdi; *"öncə vətəndir"*. Bəli, bütün andların əvvəlində vətən gəlməsə, onda heç insan da öz gücünü, qüdrətini vətən üçün sərf edə bilməz.

Müharibədə əsgər sarsıntısının özünəxas səbəbləri var. Bir əsgər digərinin ölümünə razı olmadığı üçün özünü güllənin qabağına atır. Bu hissin mahiyyətini izah etsək, mənası üzə belə çıxar. Yəni özünü dostunu müdafiə üçün irəli atan əsgərə dostu elə vətənin bir parçasıdır. Çingiz Fuadoğlu da bu hissləri yaşayırdı və əsərdə biz bu səhnələri də qanlı mənzərəsi ilə görə bilirik: *"Ən yaxın dostunu itirmişdi dünən, Nə yerə sığışır, nə də ki, göyə. Hey çalışır başqa şeylər düşünsün... Qulağından getməyi, dostunun vəsiyyəti... Zakirin dodağından qopan o son kəlmələr: "Söylə mənim yarıma, bundan sonra oğlumuz üçün yaşasın. Məndən sonra bir kimsənin əllərini tutmasın, Mən şəhidəm namusum, qeyrətim tapdanmasın. Son arzum bu - şəhidlərin qanı yerdə qalmasın! Bu kəlmələr, bu sözlər vəsiyyətdir, əmanətdir. Sahibinə çatmalı, Şəhidlər öz məzarında, rahat-rahat yatmalı".* Deməli, Çingiz üçün ən böyük ideal vətənin məcburən qatıldığı savaşdan qalib çıxmasıdır. O yaxşı başa düşür ki, yalnız bu qalibiyyətdən sonra şəhidlər öz məzarlarında rahat uyuya bilərlər.

Məlahət Soltanqızı Çingizin müharibə düşüncələrini verərkən onun dostluq duyğularına xüsusi önəm verir. Hətta ən yaxın dostunun belə adını xatırladır. Xüsusilə bir dostunun yaşadığı acınacaqlı həyatı ibrətli bir hekayə kimi danışır. Atası, anası bir vaxt qəzada həlak olan gənc, müharibə vaxtı müharibədən yayınmır, döyüşdən gizlənmir. Ç.Fuadoğlu üçün belə qəhrəmanların obrazı əvəzsizdir, o belə qəhrəmanların yanında olduğu üçün özünü yenilməz hesab edir.

Çox təsirli bir hekayəti Məlahət Soltanqızı çox ağrı ilə danışır. Oxucuya aşılamaq istədiyi ağır təəssüratı yetərincə vermək üçün mətnin formasını olduğu kimi saxlamaq oxucunu da razı salardı: *"Nələr görmədi Çingiz, Bu azacıq yaşında. Çox şəhidlər görmüşdü, Çox vəsiyyət eşidib, Çox sözlər dinləmişdi. Fəqət Zakir çoxdandı, Çingizi özünə yaxın bilirdi. Ondan gizlənmirdi bircə sözünü, Həyat dolu bir insandı, Düşünmürdü ölümü. Keçən günün birində, danışırdı aramla: -Çingiz, əziz qardaşım, Anamı, atamı eyni gündə avtomobil qəzasında itirmişəm. Əllərim hər yandan üzülü qaldı. Kiçik xalam Sərvinaz, Məni bir övlad kimi, qucaqlayıb ağladı. Bacımın yadigarı, əziz xələfi deyib başımı tumarladı, məni evinə aldı. On yaşı tamalayıb, on birə adlamışdım. Yetimlik nəymiş, inan, bilmədim. Xalamı anam kimi, hey sevib əzizlədim. Məni ayırmadı övladlarından, Doğma övlad kimi böyütdü məni, Mənə savad verdi, məktəb oxutdu. Mən razıydım o böyük Allahımdan, Atamı, anamı əllərimdən alsa da, Qarşıma xalam kimi bir insanı çıxardı. Belə məsləhətmiş, o böyük xuda, Köməksiz qoymadı məni dünyada".* Ölüm artıq Zakiri haqlamışdı, onun yeganə təskinliyi həyat romanını Çingizə danışmasıdır.

Ölümlə çarpışan insanın nələr düşündüyünü axıracan təsəvvür etmək mümkün deyil. Artıq Zakir özü də başa düşür ki, şəxsən onun özü üçün həyat bitir. Ancaq həm də həyat onun ailəsinin timsalında davam edir. Doğmaları haqqında söhbətləri ürəkyaxıcı bir duyğu ilə təsvir olunur: *"Xalamın iki gözəl qızı vardı. Biri Sara, o birisi mənlə yaşıd Nübardı. Nübarı əzəldən tutmuşdu gözüm. Bu qızın çox gözəl bir qəlbi vardı. Mənlə yaşıd olsa da, Məni böyük sanardı. Qulluğumda durardı, Heç qəlbimi qırmadı, çəpləşmişdi sözümüz. Hamıyla rəftarında səmimiydi, incəydi. Bu illər ərzində sözümü çevirmədi. İnan utanırdım... Bu iki qızı, həmişə özümə bacı sanırdım. Fəqət ürəyimlə bacarammadım. Nübar bir mələkdi, sanki bir mələk. Fırlanırdı pərvanətək başıma, Mən onunçün bu canımı verərdim, Ömrümü bəxş edib ona, ölərdim. Böyükdük, Nübar da sevirdi məni, Fəqət bu sevgimi, yoxsa doğmalıq, Yoxsa yetim qalmış xala oğluna, təmənnasız yaxşılıq".* Biz Zakiri nə qədər kövrək qəlbli bir gənc olaraq görürüksə, bir o qədər də onu qorxmaz əsgər kimi tanıyırıq. Onun düşüncəsində həyatın mənası idealın qalibiyyətidir. Bu ideal isə indiki məqamda Qarabağdır, Azərbaycan torpaqlarıdır. Başqa cür heç nəyə görə Zakir bü-




tün varlığı ilə sevdiyi Nübarını taleyin ümidinə buraxıb müharibəyə gəlməzdi. Bəlkə başqaları kimi o da yayınmağın yolunu tapardı.

Bu ürəkyaxıcı lövhələri gözlərimizin önündən keçirdikcə İkinci Qarabağ savaşında qalib əsgər kimi geriyə dönən qazilərin vətəndə biganəliklə qarşılanması, onlara diqqət və qayğı göstərilməməsi, şəhid ailələrinin problemlərinin həll olunmaması... bütün bunları acı təəssüflərlə düşünürük. Əslinə qalsa, hər bir bədii əsərin əsas məziyyəti oxucu düşüncəsinə sirayət etməsi ilə xarakterizə olunur.

Deməli, Məlahət Soltanqızı bu əsəri ilə həm də insanları səfərbər edir. Onlara dövrün həqiqətləri haqqında danışır. Elə bil ki, hər kəsə çatdırmaq istəyir ki, gəlin 90-cı illəri unutmayaq. Axı o vaxt minlərlə şəhid versək də, torpaqlarımız işğal olunmuş, yerimiz-yurdumuz talanmışdı. Biz nəyə nail olmuşuqsa, güclü dövlətimiz və ordumuzun sayəsində nail olmuşuq.

Məlahət Soltanqızı yenə də Zakirin hekayətini davam edir. Və biz Zakirlə doğmaları arasında necə yüksək insani hisslərin hakim olduğunu bir daha görürük: *"Zakirin içində bir qorxu vardı... Nübarı itirsə dayanar zaman, 25 yaşında cavan oğlandı. Oxumuşdu bacarıqlı bir memardı. Keçən günün birində, Xala söz atdı ona. Xala qurban, Bundan sonra subaylıq. Sənin nəyinə gərək, Qazancın yetərli, evimiz də var. Evin iki otağı, bundan sonra sənindir. Zakir cavab vermədi, xalasının sözünə, İndi durub nə desin. Nübara elçiliyi kimə həvalə etsin. Bu həsrətin axırı, görən nə ilə bitəcək. Gözlərinin önündə böyüyən bu gülfidan. Onunla evlənəcək?".* İnsanlığın, insanlığı yaşadan hisslərin nədən ibarət olduğuna, zənnimcə, bu parçada cavab verilir. Zakirin timsalında həyatla üz-üzə qalmış, tale ilə çarpışmada bütün varlığı ilə qalib gəlmək istəyən bir gənci görürük. Əslində elə Zakirin özünü də müharibəyə gətirib çıxaran həyatla qarşılaşmadan çəkinməmək cəsarəti olmuşdur. Bu arada müəllifin maraqlı ritorikası var:

**Söz belədir, uzandıqca uzanır,**
**Söz şairin hikmətindən güc alır.**
**Şair olan yamanca tez qocalır,**
**Hey danışır ürəyilə, qəlbilə,**
**Xırdalayır sözün sümüklərini**
**Yuxusuz gecələrdə incələdiklərini.**

Bundan sonra müəllif bir qədər də sürətli düşüncə ilə yenə Zakirin əhvalatın qayıdır. Elə bil ki, Zakiri unutmağı özünə bağışlamır. Bu məqamlarda biz müəllifin özünü də elə döyüşçü kimi görürük. Elə Çingizin, Zakirin həmməsləki olan bir döyüşçü kimi. Çünki Məlahət Soltanqızı yazdıqca qəhrəmanlarının iztirab aləminə daha çox yaxınlaşır. Onlarla birgə nəfəs alır. Onların həyat tarixçəsini özünün həyat yolu kimi qavrayır və doğma yaşantılarla qavradığı həqiqətləri oxucusuna çatdırmaq istəyir.

Sanki Məlahət Soltanqızının özü də tələsir, Zakirin ağrı və acılarını, tale yolunu axıracan dinləmək istəyir. Ona görə tələsir ki, onun varlığında bir nigarançılıq var, əgər bir an dayansa, Zakirin də nəfəsi quş kimi uçub gedər.

Bu hissləri, duyğuları yazdıqca şəhidlərimizin necə böyük qəhrəman olduqlarını bir daha yaddaşımızdan keçirirk. Müharibəyə sevgilisini, övladını, qardaşını göndərmiş anaları, bacıları bir-bir gözlərimizin önündən kino lenti kimi keçiririk. Təzədən özümüz də iztirablı yaşantılarla Çingizin, Zakirin yanına qayıdırıq. Çingiz isə həyat romanını danışmaqda davam edir: *" -Evləndik, indi də bir qızımız var. Anamın adını qoymuşam ona. İki yaşı olacaq, bu Novruz bayramında. Çingiz, bax, qardaşım, özün görürsən. Burda olanlara sən də şahidsən. Gözümüzün önündə, Gör kimlər şəhid oldu. Nə bilək, burası döyüş meydanı, Döyüş itkisiz olmaz, Axacaq şəhid qanı. Bir gün haqlayacaq bizi də ölüm, Biz gəldi-gedərik, Vətən sağ olsun! Ölümdən qorxmuram, Çingiz, qardaşım, Övladımdan arxayınam, mələk kimi anası var, Bircə şeyə üzülürəm.. Xalam məni, övladıtək bəslədi, Ağlayanda qucağına qaçdım onun, Gözlərimin yaşın silib, başımı sığalladı. Mənsə, onun əziz-xələf balasını - Nübarını, Gözü yaşlı qoyub köçsəm dünyadan, Məzarında dinclik tapmaram inan. Çingiz dinləyirdi onu aramla, Susurdu, nə desin... Deməyə söz yox".* Çingiz qəhrəman dostunun dünyada köməksiz qoyub getdiyi sevgilisini, körpə qızını da xəyalından keçirir. Onların həyat yolunu təsəvvür etməyə çalışır. Bütün hallarda həyat çox ağrılı və əzablı görüntüləri ilə həqiqətdir və heç zaman bu həqiqətlər unudulan deyil. Məlahət Soltanqızının əsər boyu ayrı-ayrı məqamlarda ədəbi fəlsəfi düşüncələri də çox maraqlıdır. Sanki öz sarsıntılarından ovunmaq üçün Zakirin tale romanından ayrılır, şair düşüncələrinə qapılır. Sənətin dili ilə həyatın ağır mənzərələrini sözə çevirir.

***(Davamı var)***